Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1, 2019, **s. 72-79**
Азербайджанский Государственный Педагогический Университет Актуальные проблемы музыкальной науки, культуры и образования №1, 2019, **с. 72-79**
Azerbaijan State Pedagogical University Actual problems of the science, culture and education of music №1, 2019, **pp. 72-79**

**UOT 7.08**

**L.Zöhrabova**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
E-mail: leylaz7@mail.ru

# AZƏRBAYCAN XALQ MAHNILARININ MELODİK TƏHLİLİNDƏ GƏZİŞMƏNİN ƏHƏMİYYƏTİ

***Açar sözləri**: xalq mahnıları, gəzişmə, melodika, məqam*

Təqdim olunan məqalədə ilk dəfə xalq mahnılarının melodik baxımından təhlili zamanı istifadə olunan müxtəlif növ gəzişmələrin rolu və əhəmiyyəti araşdırılmışdır. Burada bir sıra səslər ətrafında müxtəlif növ gəzişmələr (tonika, tonikanın kvintası, tonikanın kvartası və s.) üzə çıxarılmışdır. Həmin gəzişmələr müxtəlif diapozon çərçivəsində yaranır. Məqalədə həmçinin gəzişmənin məqam ilə əlaqəliliyin əsas aparıcı amil kimi tədqiq olunur.

**Л.Зохрабова**

# ВАЖНОСТЬ ОПЕВАНИЯ В АЗЕРБАЙДЖАНСКИХ НАРОДНЫХ ПЕСЕН

***Ключевые слова:** народные песни, опевание, мелодика, лад*

В представленной статье впервые исследуется роль и значение разных видов опеваний, используемых в мелодическом анализе народных песен. Существует несколько ряд звуков на которых образуются различные виды опевания (тоники, квинта тоники, кварта тоники и т.д.). Эти опевания происходят в разных диапазонах. В статье также исследуются важность опеваний в отношении лада как ключевого фактора.

**L.Zohrabova**

# THE IMPORTANCE OF SINGING AZERBAIJANI FOLK SONGS

***Key words:** folk songs, singing, melody, harmony*

In the presented article, the role and significance of different types of singing used in the melodic analysis of folk songs was first investigated.

There are several series of sounds on which various types of singing are


formed (tonic, quintic of tonic, quart of tonic, etc.). These singing takes place in different ranges. The article also explores the importance of singing in relation to harmony as a key factor.

Azərbaycan xalq musiqi yaradıcılığında melodiyanın istinad pillələri ətrafında baş verən gəzişmələr bütün janrlar üçün xüsusi rola malikdir. Bu mühüm amil melodiyanın inkişafında da əhəmiyyətlidir.

Onu da qeyd edək ki, əsərin melodik təhlilində bir sıra növlər mövcuddur. Melodiyanın hərəkət üsulları, sekvensiya, sıçrayış, təkrar, gəzişmə və başqaları buna bariz nümunədir. Bunlar içərisində gəzişmənin melodiyanın məqam intonasiya xüsusiyyətləri ilə sıx bağlılığı vardır. Gəzişmə həmçinin xalq mahnılarında melodiyanın inkişafı üçün əsas vasitədir.

Xalq mahnılarımızın melotematizmində sadə quruluşlu müəyyən istinad pillə (əsasən tonika və ya başqa dayaq pillə) ətrafında qonşu səslər vasitəsilə gəzişmə öz əksini tapır. Mahnının əsaslandığı məqamdan asılı olaraq pillə ətrafında gəzişmələr yarım ton, bir ton və bir ton yarım məsafələrində (əsasən çahargah və şüştər məqamlarına əsaslanan mahnılara aiddir) özünü göstərir.

Təhlil zamanı ən çox rast gəldiyimiz gəzişmə növü qonşu səslər vasitəsilə **tonika** (mayə) ətrafındadır. Tonika ətrafında gəzişmənin sadə formasını bir ton yuxarı və yarım ton aşağı köməkçi səs vasitəsilə "Mən gedirəm Zəngilana" (2, №127), "Budur bir cüt qara göz" (2, №137), "Gəldim" (2, №63), "Aşağıdan bir gəmi gəlir" (2, №51), "Ey bivəfa yar səni" (2, №110) və s. mahnılarında görmək olar. "Mən gedirəm Zəngilana" mahnısı üzərində tonika ("sol$^{1}$") ətrafında gəzişməyə nəzər yetirək.




Bu cür gəzişmə bir çox mahnı nümunələrimizə xasdır.

Gəzişmələr müxtəlif diapazon çərçivəsində baş verir. Ən kiçik diapazon kiçik tersiyadır. Bu cür gəzişmə növünə "Telli" (2, №4) ("sol$^{1}$" – "mi$^{1}$"), "Uca dağ başında" (2, №99) ("fa$^{1}$"- "re$^{1}$") , "Qara gözlü nigarım var" (2, №104) ("lya$^{1}$"- "fa diyez$^{1}$"), "Dara zülfün" (2, №26) ("lya$^{1}$"- "fa diyez$^{1}$") və s. mahnılarında rast gəlirik. Dediklərimizi "Dara zülfün" mahnısından bir fraqment üzərində göstərək.



Tonikanın üst aparıcı pilləsilə (V pillə - "mi[1]" səsi) üst mediantası (VI pillə- "fa[1]" səsi) arasında tersiya məsafəsində gəzişməni "Sarı gəlin" (1, №135) mahnısında da izləmək olar.

Çahargah məqamında tonika ətrafında gəzişmə **xalis kvarta** ("do diyez[2]"- "fa diyez[2]") məsafəsindədir. Bu cür gəzişməni "Gəl, gəl ay ellər gözəli" (2, №85) mahnısında rast gəlirik. Həmin məsafə mahnıda tonikanın alt aparıcı səsi ("do diyez[2]") ilə tonikanın üst tersiya ("fa diyez[2]") pillələri arasında yaranır.





"Yar gəlir" (1, №88) mahnısında isə yuxarı tonika ("do[2]") ətrafında artıq **xalis kvinta** həcmində gəzişmə üzə çıxır ki, o da rastın əraq aralıq məqam ilə bağlıdır.

Mahnının əvvəlində reçitativli melodiya, tonikanın alt kvartasına çatdırılır ("sol[1]"), daha sonra isə alt kvartadan tonikanın üst aparıcı tonuna sıçrayış baş verir. Həmin səsdən pilləvari enmə hərəkətlə tonikaya ("do[2]") tam kadans dönməsində gəzişmə baş verir.




Tonika ətrafında gəzişməni daha geniş diapazonda "İş başına" (1, №4) mahnısında izləmək olar. Mahnıda tonika ətrafında gəzişmə iki məsafədə baş verir. Birinci cümlədə xalis kvinta ("fa[1]"- "do[2]"), ikinci cümlədə böyük septima ("mi[1]" – "re[2]") məsafəsində gəzişmədir. Qeyd etdiyimiz kimi, hər iki məsafədə gəzişmə tonika səsi ətrafında yaranır.



Beləliklə, tonika ətrafında gəzişmə aşağıdakı məsafələr arasında öz ifadəsini tapır:

a) tonikanın üst və alt aparıcı səsi vasitəsilə - sekunda məsafəsində;

b) tonikanın üst aparıcı və üst medianta pilləsi arasında - tersiya məsafəsində;

c) tonikanın alt aparıcı səsilə tonikanın üst mediantası arasında - xalis kvarta məsafəsində;

ç) tonikanın alt kvartası ilə tonikanın üst aparıcı pilləsi arasında - xalis kvinta məsafəsində

d) tonikanın alt kvartası ilə tonikanın üst kvartası arasında - septima məsafəsində.

Xalq mahnı nümunələrində tonika ilə yanaşı **kvinta tonu ətrafında da** gəzişmələrə təsadüf olunur. Bu növ gəzişmələr segah məqamına dayaqlanan mahnılara xüsusilə xasdır.


Segah məqamında yazılmış mahnılarda tonika ilə yanaşı **əsas tonun kvinta pilləsi** (VI pillə) ətrafında gəzişməyə də çox təsadüf olunur. Bu əlamət şikəsteyi-fars aralıq məqamı və onun istinad pilləsi ilə əlaqəlidir. Bunu "Aşağıdan bir gəmi gəlir" (2, №51), "Ninni" (1, №1) və "Uca dağ başında" (2, №99) mahnılarında izləmək olar.

"Uca dağ başında" (2, №99) mahnısında əsas tonun kvintası ("$fa^1$") ətrafında gəzişmə seksta diapazonunda ("$re^1$- si bemol$^1$") verilir. Musiqi düzümünün əvvəlində əsas tonun kvintasından ("$fa^1$") əsas tonun oktavasına ("si bemol") sıçrayış sonra pilləvari aşağıya enmə ilə tənzimlənir.


Segah məqamında **əsas tonun kvintası** "$sol^1$" səsi ətrafında gəzişməni "Ninni" (1, №1) mahnısında izləyə bilərik. Mahnıda gəzişmə əksildilmiş kvarta həcmində baş verir.





Tonika və kvinta tonları ilə yanaşı **tonika kvartası** da əsas istinad pillələrdən biri sayılır. Həmin pilləyə gəzişməni şur məqamına əsaslanan "Alma" (1, №71) adlı mahnıda göstərə bilərik. Burada ilk cümlədə tonikanın kvartası ("$do^2$") və mahnının sonuncu cümləsində isə tonika pilləsi ətrafında gəzişmə vardır. Mahnıda tonika kvartası ətrafında verilən gəzişməni əyani təqdim edirik.




Segah məqamında qurulmuş "Qaşın arasında" (2, №131) mahnısında da tonika pərdəsi ilə yanaşı, **tonikanın üst aparıcı tonu - V pillə** ("mi[1]") ətrafında aşağıdan və yuxarıdan köməkçi səs vasitəsilə gəzişmə baş verir.




"Əsmə, badi səba" (2, №12) mahnısında da tonika ilə bərabər **VIII pillə (tonikanın kvintası** – "lya[1]") ətrafında gəzişmə kvinta ("sol[1]- re[2]") diapazonunda öz ifadəsini tapır.





Elə xalq mahnıları da var ki, onlarda **iki istinad səs ətrafında gəzişmə** mövcuddur. Hər iki dayaq pillə ətrafında gəzişmə əsasən kadanslarda üzə çıxır.

Segah məqamına dayaqlanan mahnı nümunələrində gəzişmə xarakterik olan **əsas tonun kvintası ilə tonika** ətrafında baş verə bilir.

"Bu gələn yara bənzər" (2, №117) mahnısında əsas tonun kvintası və tonika ətrafında gəzişmə yaranır. Əsas ton kvintasının istinad səsi "lya[1]", tonika səsi isə "re[1]"dir. Belə ki, həm əsas ton kvintası ("fa[1]" – "do[2]"), həm də tonika ("re[1]"- "lya[1]") ətrafında gəzişmə xalis kvinta məsafəsində baş verir.




Şur məqamında qurulmuş "Bağçası barı" (2, №65) mahnısında da iki pillə ətrafında gəzişmələrə aid nümunələr var. Burada gəzişmə tonika (IV pillə) və tonikanın üst mediantası (VI pillə) ətrafında yaranır. Tonika ("si[1]") ətrafında gəzişmə kvarta həcmində, tonikanın üst mediantası ("re[2]") ətrafında gəzişmə isə yuxarıdan və aşağıdan kiçik tersiya vasitəsilədir.




Xalq mahnı nümunələrində **üç səs ətrafında baş verən gəzişmələr** də öz əksini tapır. Bir neçə nümunə əsasında dediklərimizi sübuta yetirək.

Segah məqamına dayaqlanan mahnılarda üç səs ətrafında gəzişmələr vardır. Bu xüsusiyyəti "Səhər-səhər yaz çağı" (1, №5) mahnısı üzərində əyani göstərək.

1. Əsas tonun kvintası – "sol[1]"
2. Tonikanın üst aparıcı səsi – "fa[1]"
3. Tonika – "mi[1]"




Maraqlı nümunələrdən biri də segah məqamında modulyasiyalı mahnılarda gəzişmələrin ifadə olunması ilə əlaqəlidir. Buna parlaq nümunə "Şəfəq sökülürkən" (1, №7) mahnısı ola bilər. Burada məqam dəyişkənliyi nəticəsində üç pillə ətrafında gəzişmə yaranır. Bu kvarta məsafəsində ("mi[1] – lya[1]") əsas tonun kvintası ("fa diyez[1]"), kiçik seksta məsafəsində ("do diyez[1]- "lya[1]") tonikası ("re[1]") və böyük seksta məsafəsində ("mi[1]- do diyez[1]") rastın tonikası ("lya[1]") ətrafında gəzişmədir.

"Nar-nar" (1, №126) mahnısında da segah məqamının istinad pillələri ətrafında gəzişmə üç pillə ilə bağlıdır. Onu da qeyd edək ki, bir mahnı daxilində müxtəlif pillələr ətrafında gəzişmələrin yaranması məqam və onun müxtəlif keçidləri - yönəlmə və modulyasiyaları ilə bağlıdır. "Nar-nar" mahnısında da həmin xüsusiyyət öz əksini tapır. Mahnıda melodiya zil registrdə başlandığı üçün əsas tonun oktavası – "do$^{2}$" (IX pillə) ətrafında tersiya məsafəsi həcmində gəzişmə baş verir. İkinci cümlədə əsas tonun kvintası "sol$^{1}$" (VI pillə) ətrafında gəzişməni xalis kvinta məsafəsi həcmində görürük, nəhayət mahnının sonunda tonikaya - "mi$^{1}$"(IV pillə) səsinə istinadən tersiya həcmində gəzişmə ilə mahnı tamamlanır. Göründüyü kimi, segah üstündə qurulmuş mahnının melodik arxitektonikası zildən başlayaraq pilləvari enən hərəkətlə istinad pillələrinə kadanslar vasitəsilə əsas tonikaya qayıdışdan ibarətdir.

Beləliklə, segah məqamı üçün əsas istinad pillələr olan IV, VI və IX mahnılarda gəzişmə melodik ifadəsi ilə öz əksini tapır.

Yuxarıdakı mahnının arxitektonikasına uyğun olaraq "Yeri nazənin" (2, №86) mahnısında da üç pillə ətrafında gəzişməyə təsadüf olunur. Mahnı rast məqamındadır. İlk gəzişmə mayənin bir oktava yuxarı – əraq aralıq məqamının istinad səsi olan "mi bemol$^{1}$"un (XI pillə) ətrafında yaranır. Sonra "Rast" muğamının "Şikəsteyi –fars" şöbəsi ilə əlaqəli tonikanın üst mediantası – "sol$^{1}$"(VI pillə) səsi ətrafında gəzişmə baş verir. Nəhayət, melodiyanın sonunda tonika - "mi bemol$^{1}$" (IV pillə) səsi ətrafında gəzişib, tam kadansla bitir. Eyni məqamda üç istinad pillə ətrafında gəzişməni "Yaqut yəməni neylər" (2, №125) mahnısında da görmək olur.

Elə xalq mahnıları da var ki, onlarda **dörd istinad səs ətrafında gəzişmə** var. "Qara gilə" (1, №25) xalq mahnısı buna bariz nümunə ola bilər. Mahnıda gəzişmə baş verən pillələr aşağıdakılardır:

1) şur məqamının tonikasına ("re$^{1}$") xalis kvarta həcmində
2) tonikanın üst aparıcı ("mi$^{1}$") xalis kvarta həcmində
3) tonikanın kvartasına ("sol$^{1}$") xalis kvarta həcmində
4) segahın tonikasına ("mi$^{1}$") əksildilmiş kvinta həcmində.

Şüştər məqamına əsaslanan mahnılarda da gəzişmələr böyük rola malikdir. Məlumdur ki, burada tonika ilə yanaşı əsas yeri III pillədə yerləşən tamamlayıcı ton təşkil edir. Belə ki, digər məqamlarda özünəxas əsas istinad pillələri olduğu kimi şüştər məqamında da tamamlayıcı ton vacib pillələrdən biri sayılır. Məhz tamamlayıcı ton üzərində şüştər məqamının tam kadansı, fikir yekunu baş verir. Bu səbəbdən həmin səs üzərində də gəzişmənin olması mütləqdir. Şüştərə əsaslanan demək olar ki, bütün mahnılarda tamamlayıcı ton pilləsinə də gəzişmə var. "Beşik başında" mahnısının ilk cümləsində biz tonika ("fa$^{1}$") səsinə yarım kadansı, daha sonra isə məhz tamamlayıcı ton olan "do$^{1}$" səsinə xalis kvinta həcmində gəzişməni müşahidə edirik.




Beləliklə, Azərbaycan xalq mahnılarında yaranan gəzişmələr bir sıra zənginlikləri ilə özünü nümayiş etdirir. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar. Gəzişmə muğam dəstgahının quruluşundan, eləcə də məqam qanuna uyğunluğundan irəli gələrək müxtəlif istinad pillələri ətrafında baş verir: a) tonika; b) tonikanın kvintası (segah məqamında əsas tonun kvintası); c) tonika kvartası; d) tonikanın mediantası; e) tonikanın üst aparıcı tonu; ə) digər pillər - segah məqamında əsas tonun oktavası, çahargah məqamında tonikanın bir oktava yuxarı səsi, şüştər məqamında tamamlayıcı ton pilləsi və s. ətrafında gəzişmənin növləri aşkara çıxarıldı.

Təhlil nəticəsində, sübut olundu ki, mahnı daxilində ən çox dörd pillə ətrafında gəzişmə vardır. Həmçinin hər hansı bir istinad pillə ətrafında baş verən gəzişmə müxtəlif diapazon çərçivəsində meydana çıxır. Belə ki, üst və alt səslərdən başlayaraq septimaya qədər olan məsafə çərçivəsində gəzişmələr mövcud ola bilər.

## ƏDƏBİYYAT

1. Azərbaycan xalq mahnıları. I cild. Tərtibçi: S.Kərimi. B.: Öndər nəşriyyatı, 2005.

2. Azərbaycan xalq mahnıları. II cild. Tərtibçi: S.Kərimi. B.: Öndər nəşriyyatı, 2005.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 08.11.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.11.2019**
**Məqaləni çapa qəbul olunma tarixi: 29.12.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə elmlər doktoru, professor Nailə Rəhimbəyli**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**